# AZƏRBAYCANDA BİOMÜXTƏLİFLİYİN QORUNMASININ HİMAYƏDARI

**Vüqar Kərimov**

*Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini, Bakı*
*vugarkarimov@eco.gov.az*

Heydər Əliyev görkəmli dövlət xadimi kimi doğma ölkəsinə, onun təbiətinə bağlılığı ilə seçilirdi. Azərbaycan təbiətindən bəhs edərkən xalqımızın Ümummilli Liderinin ölkəmizin ətraf mühitinin mühafizəsi istiqamətində gördüyü misilsiz işləri xatırlamamaq mümkün deyildir.

Ulu Öndər Azərbaycanda rəhbər olduğu müddətdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli məsələlərini də daim diqqət mərkəzində saxlayıb. Dahi rəhbər ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, eləcə də təbii sərvətlərdən səmərəli istifadə məsələlərinə xüsusi qayğı ilə yanaşırdı. O, respublikamız üçün aktual olan ekoloji problemlərin həll edilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsinə rəhbərlik etmişdir.

Ulu Öndər Heydər Əliyevin iradəsi ilə 1969-1982-ci illərdə ekologiya, ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadəyə dair çox mühum 8 qanun və 32 qərar qəbul olunmuşdur.

Hələ sovet hakimiyyəti illərində Azərbaycana rəhbərliyinin birinci dövründə görkəmli dövlət xadimi Heydər Əliyev təbii sərvətlərin qorunması, yaşıllaşdırma tədbirlərinin miqyasının artırılmasına xüsusi önəm verirdi. Məhz onun təşəbbüsü ilə həyata keçirilən və ümumxalq layihəsinə çevrilən genişmiqyaslı aksiyalarla xarakterizə olunan yaşıllaşdırma tədbirləri nəticəsində Bakı şəhəri və Abşeron yarımadası yaşıl libasa bürünməyə başlamışdır. 1970-ci ilə qədər Bakı şəhərində bir neçə faizə çatan yaşıllıq sahələri Ulu Öndər

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi həmin illərdə 17 min hektara qədər çatdırılmışdır. O dövrə kimi Bakı şəhərində mövcud olan yaşıllıqların sahəsi həddindən artıq az və plansız şəkildə olmuşdur. XIX əsrin 50-ci illərinə aid məlumatlara görə, Bakının yaşıl örtüyü yulğun və iydə kollarından, Bakı ətrafı kəndlərdə salınmış kiçik əncir, üzüm, püstə, badam və nar bağlarından ibarət olmaqla paytaxtın ümumi ərazisinin cəmi 1%-ə qədərini təşkil edirdi.

Ulu Öndərin həmin dövrdə "Hər adama 2 ağac əkib becərək" çağırışı ümumxalq hərəkatına çevrildi və 100 hektarlarla yeni yaşıllıqlar salındı. 1971-ci ildə Bakı və Abşeron yarımadasının yaşıllaşdırılması işləri ilə bağlı Mərkəzi Komitənin və Nazirlər Sovetinin qərarları qəbul olundu. 1971-1975-ci illərdə adambaşına düşən yaşıllıq miqdarı 6,5 $m^2$-dən 17,5 $m^2$-ə çatdırıldı.

Hazırda Mərkəzi Bakıda (Qaradağ və Abşeron rayonları istisna olmaqla) 105 200 hektar yaşıllıq ərazisi mövcuddur ki, bu göstərici Yasamal rayonu üzrə 31,7%, Səbail rayonu üzrə 26,2%, Suraxanı rayonu üzrə 25,5%, Nizami rayonu üzrə 24,3% və Xətai rayonu üzrə isə 23,8% təşkil etməklə ümumi ərazinin 14,2%-i yaşıllıq altına düşür.

Ulu Öndərin hakimiyyəti illərində, 1976-cı ildə "Qırmızı Kitab"la bağlı ilk rəsmi sənəd qəbul olunub. Bunun da əsasında 1989-cu ildə "Qırmızı Kitab"ın I nəşri işıq üzü görüb.

Bəsitçay, Qarayazı, Ağgöl, Hirkan, Abşeron, İsmayıllı və Şirvan Dövlət Təbiət qoruqlarının yaradılması Ulu Öndərin 1969-1982-ci illərdə ölkəyə başçılıq etdiyi dövrə təsadüf edir. Ordubad, Qubadlı, İsmayıllı, Şəki, Qusar, Şəmkir, Qəbələ, Bərdə, Zuvand, Qarayazı, Gil adası, Kiçik Qızılağac və Arazboyu (Zəngilan rayonu) Dövlət təbiət yasaqlıqları da məhz onun diqqət və qayğısı ilə yaradılmışdır.

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra, 1993-cü ildə yenidən hakimiyyətə gəlmiş Heydər Əliyev ekoloji məsələləri bir daha ön cərgəyə çəkmiş, bu sahədə olan mövcud problemlərə xüsusi diqqət ayırmışdır. Bu dövrdə meşə, torpaq, su və s. haqqında bir sıra yeni qanunlar qəbul edilmişdir. O ağır keçid illərində bütün çətinliklərə baxmayaraq, Azərbaycanda ətraf mühitin mühafizəsi sahəsinə böyük diqqət ayrılmışdır.

Müstəqillik əldə etdikdən sonra Azərbaycanda ilk milli park statuslu qorunan ərazilərin yaradılması da məhz Ulu Öndərin adı ilə bağlıdır. Akademik Həsən Əliyev adına Zəngəzur, həmçinin Şirvan və Ağgöl milli parkları, eləcə də Qax yasaqlığı 2003-cü ildə yaradılmışdır.

Bu istiqamətdə həyata keçirdiyi tədbirlər sırasında Ulu Öndərin Sərəncamı ilə 2001-ci ildə bir sıra sahələr üzrə fəaliyyət göstərən dövlət orqanlarının bazasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır.

Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi dövrdə Azərbaycan Respublikası Türkiyə, Norveç, Gürcüstan, Qazaxıstan, Moldova, Rusiya Federasiyasının Dağıstan Respublikası ilə ətraf mühitin mühafizəsi sahəsində hökumətlərarası birgə əməkdaşlıq sazişləri imzalamış və bir sıra beynəlxalq konvensiyalara qoşulmuşdur.

Azərbaycan Respublikası 1993-cü ildə "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında" Konvensiyaya, 2000-ci ildə BMT-nin "İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyası"na (Kioto Protokolu), 1993-cü ildə "Ümumdünya Meteorologiya Təşkilatının Konvensiyası"na, 1998-ci ildə "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiyaya (Cites), 1999-cu ildə "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya"ya, "Avropanin canlı təbiətinin və təbii mühitinin qorunmasi haqqında Avropa Konvensiyası"na, "Ətraf mühit ilə bağlı məsələlərdə məlumatin əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştiraki və ədalət məhkəməsinin açiq keçirilməsi haqqında" BMT-nin Konvensiyasına (Orxus) və "Sərhədlərarası kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsinə dair Konvensiya"ya, 2000-ci ildə "Ozon qatını dağıdan maddələr üzrə" Monreal Protokoluna, "Bitki mühafizəsi haqqında" beynəlxalq Konvensiyaya və UNESCO-nun "Əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyətli olan sulu-bataqlıq yerlər haqqinda" Konvensiyasına, həmçinin 2002-ci ildə "Böyük məsafələrdə havanın transsərhəd çirkləndirilməsi haqqında" Konvensiyaya qoşulmuşdur.

1999-cu ildə "Ekoloji təhlükəsizlik haqqında", 2000-ci ildə isə "Ətraf mühitin mühafizəsi haqqında" və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" qanunlar qəbul edilmiş, 2003-cü ildə "Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair" və "Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair" Milli proqramlar qəbul edilmişdir.

Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə ekoloji təhsilə xüsusi önəm verilmişdir. Ali təhsil müəssisələrinin tədris proqramlarına ətraf mühitin mühafizəsi ilə bağlı dərslər salınmış, müvafiq kafedra və ixtisasların təşkili, ekologiya sahəsində ilk elmi dərəcələrin verilməsi təmin edilmişdir.

2023-cü ilin "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar ötən il ölkəmizdə və onun hüdudlarından kənarda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş genişmiqyaslı müxtəlif tədbirlər keçirilmişdir.

AR Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birgə əməkdaşlıq istiqamətində bioloji müxtəlifliyin qorunub saxlanılması, həmçinin nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin mühafizəsi və gələcək nəsillərə çatdırılmasında vacib əhəmiyyət kəsb edən Azərbaycan Respublikasının "Qırmızı Kitab"ının III nəşri və "Azərbaycan Təbiəti" kitabı nəşr edilmiş, yaşıllaşdırma tədbirləri çərçivəsində ümumilikdə 4 milyona yaxın ağac və kol tingləri əkilmişdir.

Azərbaycan təbiəti ilə daim fəxr və iftixar hissi keçirən Ümummilli Lider Heydər Əliyev deyirdi: "Mən istəyirəm ki, siz hamınız təbiəti qoruyanlardan olasınız".